# İşğalçılar Azərbaycan torpaqlarından çıxmalıdırlar!

## Azərbaycan həqiqətləri dünya mediasında

***Ermənistanın Azərbaycana qarşı hərbi təxribatları, yeni işğal cəhdləri ilə davam edən Dağlıq Qarabağ müharibəsi dünya mediasının da gündəmindədir. Transmilli televiziya kanallarında, beynəlxalq informasiya agentliklərində, müxtəlif ölkələrin informasiya saytlarında Ermənistan–Azərbaycan müharibəsi xüsusi işıqlandırılır.***

Azərbaycan dövləti informasiya müharibəsində də ardıcıl, prinsipial, davamlı mübarizə aparır, informasiya texnologiyalarının verdiyi imkanlarla xarici media nümayəndələrini, jurnalistləri Qarabağ həqiqətləri ilə operativ məlumatlandırır. İnternetin, innovativ informasiya texnologiyalarının sayəsində baş verən hadisələr anındaca dünya mediasının gündəminə düşür. Artıq Ermənistan mifi, erməni lobbisinin yaratdığı informasiya blokadası yoxdur. Erməni lobbisinin xüsusi mövqeyə malik olduğu Rusiya kütləvi informasiya vasitələrində də hər nə qədər ikili standartlar, qərəzli yanaşma olsa da, Azərbaycan ziyalılarının haqq səsi eşidilir. Bu kontekstdə Azərbaycan Prezidentinin Rusiyanın aparıcı televiziya kanallarına, dövlət informasiya agentliyə verdiyi müsahibələr Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixi, hüquqi, siyasi aspektlərdən xarici auditoriyaya çatdırılmasında, müəyyən ictimai rəyin formalaşmasında müstəsna rol oynayır.

Prezident İlham Əliyevin bu müsahibələri təkcə ölkə mediasının deyil, dünya kütləvi informasiya vasitələrinin də diqqət mərkəzindədir. Moldovanın “NOİ.md” informasiya portalında Prezident İlham Əliyevin Rusiyanın TASS informasiya agentliyinə müsahibəsində səsləndirdiyi fikirləri dərc edilib. Məqalədə Azərbaycan Prezidentinin ATƏT-in Minsk qrupunun səmərəsiz fəaliyyəti, vasitəçi dövlətlər olan Rusiya və Fransanın Ermənistana açıq dəstəyi ilə bağlı fikirləri işıqlandırılıb. Rusiyanın Ermənistana qeyri-qanuni silah verməsi vasitəçi bir dövlətin ststusuna uyğun deyil. Azərbaycan Prezidentinin müsahibəsində bu məsələlər xüsusi qeyd edilir.

Prezident İlham Əliyevin ikili standartla fəaliyyət göstərən həmsədr dövlətlər haqqında haqlı iradları, arqumetli fikirləri yazıda öz əksini tapıb: “Azərbaycan Xarici İşlər Nazirliyi ICAO-ya müraciət edib ki, müəyyən şirkətlərin nəqliyyat vasitələri ilə humanitar yüklər və Fövqəladə Hallar Nazirliyinin yükləri adı altında Ermənistana ölümsaçan silahlar çatdırılır, yeri gəlmişkən, bütün bu məlumatlar bizdə də var, mətbuatda da. Həm Gürcüstan, həm də İran öz hava məkanını hərbi yüklər üçün bağladıqlarına görə, bu cür qaçaqmalçılıq metodlarından istifadə edilir. Biz Rusiya tərəfinə bildirmişik ki, bu işlərin qaçaqmalçılıq yolu ilə görüldüyünü güman edirik. Ona görə ki, Rusiyanın, həmçinin Fransa və ABŞ-ın da ATƏT-in Minsk qrupunun həmsədri və bitərəfliyi saxlamalı olan ölkə kimi münaqişənin aktiv fazası dövründə erməni tərəfini silahlandırmasına inanmağımız çətindir”.

Artıq dünyanın bir çox mətbu orqanları, televiziya kanalları, informasiya saytları Azərbaycan reallıqlarına dair informasiyaları jurnalistikanın etik dəyərləri çərçivəsində – dəqiq, qərəzsiz, obyektiv əks etdirə bilirlər. “Əl-Cəzirə” informasiya agentliyinin saytında müəllif Robert Kulterin “Dağlıq Qarabağda alovlanmanın arxasında nə durur? Və bunu necə həll etmək olar?” sərlövhəli yazısı öz obyektivliyi ilə maraq doğurur. Müəllif haqlı olaraq göstərir ki, indiki münaqişənin mənşəyi Ermənistanın suveren Azərbaycan ərazilərini işğalı ilə bağlıdır.

Döyüşlərdə məğlub olan Ermənistan münaqişənin regional, qlobal müstəviyə çıxması üçün bütün riyakarlıqlara əl atır. Ermənistan ərazisindən Azərbaycanın döyüş bölgəsindən kənarda yerləşən şəhər və rayonlarının raket hücumuna məruz qalması məhz dövlətimizin buna cavab verdiyi təqdirdə düşmənin hərbi müttəfiqi olan Rusiyanın müharibəyə cəlb olunmasına hesablanıb. Digər tərəfdən, ermənilər Azərbaycan Ordusunun, guya Şuşadakı kilsəni ağır artilleriya ilə dağıtmasına dair yalan informasiyanı tirajlayaraq xristian dövlətlərin diplomatik və hərbi dəstəyini almağa çalışır. Ermənistanın siyasi etikaya sığmayan bu strateji piarını Robert Kulter ifşa edir: “Ermənistan “xristian kartı” müsəlman Azərbaycanla “sivilizasiyaların toqquşması” kimi təsvir edərək oynamağa çalışıb. Ancaq bu təbliğat xətti o qədər də yaxşı satılmır. Münaqişənin dini fərqliliklərdə heç bir əsası yoxdur”.

Məqalədə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin başlanğıcına, böyük toqquşmalara – 1905–1907, 1918–1920-ci illərə tarixi ekskurs edilir, 1920-ci ilə qədər Azərbaycanın bir bölgəsi olan Qarabağa muxtariyyətin sovetlər dövründə verildiyi qeyd olunur. Dağlıq Qarabağın əzəli Azərbaycan torpağı olmasını sübut edən faktlar müəllifin geniş araşdırmasını göstərir. Qarabağ bölgəsi ilə bağlı Stalinin əmrini dünya auditoriyasının xüsusi diqqətinə yönəldən Kulter, ermənilərin torpaq iddialarının əsassız olduğunu sübut edir: DMV-nin yaradılmasına dair qərarda deyilir ki, bölgə Azərbaycanın tərkibində “qalmalıdır” – yeni bölgənin başlanğıc olaraq ölkənin bir hissəsi olduğu nəzərdə tutulur”. Yazıda 1988-ci ildə seperatçı ermənilərin Qarabağda keçirdikləri referendumun qanınsuz olduğu da faktlarla isbat edilir.

Müəllif beynəlxalq birliyin Dağlıq Qarabağı Azərbaycanın ərazisi kimi tanıdığını, Ermənistanın Azərbaycan ərazisinin 20 faizini işğal etdiyini və bununla bağlı BMT-nin Təhlükəsizlik Şurasının məlum qətnamələrinin hələ də kağız üzərində qaldığını bildirir. Ermənilərin Xocalıda törətdikləri soyqırımı faktlarına toxunur.

Ermənistanın indiki baş nazirinin Madrid prinsiplərini tanımaması, işğalçı ölkənin müdafiə nazirinin “yeni torpaqlar uğrunda yeni müharibə “ çağırışı 30 il diplomatik yolla həll olunmayan münaqişənin gərginləşməsinə səbəb oldu. İyul, sentyabr hərbi təxribatları dondurulmuş müharibənin yenidən alovlanmasına zəmin yaratdı. Butun bunları təfərrüatı ilə şərh edən jurnalist 2019-cu ilin avqust ayında 1990-cı ilin əvvəlindən bəri heç bir erməni siyasətçisinin etmədiyi edən Paşinyanın Azərbaycanın işğal etdiyi əraziləri Ermənistanın ayrılmaz hissəsi elan etməsini münaqişənin kulminasiya nöqtəsi kimi qiymətləndirir.

“Bu gün işğal altında olan ərazilər xaricində Bakı, Gəncə və digər Azərbaycan şəhərlərində minlərlə erməni yaşayır”. Məqalədə göstərilən bu fakt Azərbaycan xalqının humanist, sülhpərvər mövqeyini, nasist Ermənistandan fərqli dövlətimizin tolerant siyasətini xarakterizə edir.



politicamentecorretto.com
direttore responsabile Salvatore Viglia

19.1 °C Roma martedì, Ottobre 20, 2020 Contatti Registrati NEWSLETTER

POLITICA CULTURA E SOCIETÀ PRESS NOTE LA VOCE DEGLI AVVOCATI INTERVISTE PIE

centrale Politica

Minacce terroristiche contro i diplomatici azerbaigiani da parte dell'Armenia

Di giornale - Ottobre 19, 2020 41 0

"La Voce degli AVVOCATI" si fregia del patrocinio morale dell'Ordine Degli Avvocati di Roma.

Questo sito web utilizza i cookies per migliorare la vostra esperienza. Si presume che siate d'accordo con ciò. Altrimenti può scegliere diversamente. Leggi tutto

Robert Kulter dövlətimizin ərazi bütövlüyünün bərpası uğrunda mübarizəsini yüksək qiymətləndirir, münaqişənin hərbi yolla həllində Azərbaycanın haqlı mövqeyini dünya ictimaiyyətinin diqqətinə çatdırır: “Azərbaycanın Birləşmiş Millətlər Təşkilatı Nizamnaməsinin 51-ci maddəsinə əsasən, özünümüdafiə məqsədi ilə hərəkət etmək hüququ vardır. Bu, Bakının münaqişəyə baxışı üçün çıxış nöqtəsidir”.

Xarici jurnalistlərin diqqətini cəlb edən əsas məqam həm də insan faktorudur. O, insanlar ki, 30 ildir ki, öz vətənlərində məcburi köçkün statusu daşıyırlar. İsveçrənin tanınmış jurnalisti, postsovet məkanı üzrə araşdırmaçı və Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən bəhs edən “Unudulmuş münaqişə” kitabının müəllifi Andre Vidmer məhs belə insanların həyatı ilə tanış olur, “Frankfurter Allgemeine Zeitung” qəzetində “Onlar atəş altında geri dönmələrini gözləyirlər” başlıqlı məqaləsində Tərtərdə məskunlaşmış 1100 məcburi köçkünün Vətən həsrətindən bəhs edir.

Bu gün beynəlxalq hüququn özünümüdafiə prinsipinə əsaslanaraq ərazi bütövlüyünü təmin edən Azərbaycana atəşkəs çağırışı edən dünya birliyi Qarabağdakı etnik ermənilərin təhlükəsizliyindən narahatlıq keçirir. Lakin dünya bir milyondan çox qaçqının taleyinə biganə qalmaq bir yana, onların varlığını belə unudub. Dağlıq Qarabağda etnik cəhətdən ermənilər azərbaycanlılara nisbətdə çoxluq təşkil etsə də, işğal edilən ətraf yeddi rayonun əhalisinin 90 faizinin azərbaycanlılardan ibarətdir. Dağlıq Qarabağ və 7 rayonun bir milyondan çox əhalisi bu gün də köçkün həyatı yaşayır. Təəssüf ki, beynəlxalq birlik 30 ildə bu insanların hüquqlarının bərpası istiqamətində heç bir nəticə əldə edilməyib. Məqalə məcburi köçkünlərin pozulmuş hüquqlarının dünya ictimaiyyətinin diqqətinə çatdırılması baxımından əhəmiyyətlidir. Məcburi köçkünlərin fikirlərinin də yer aldığı yazıda gün ərzində partlayışların eşidildiyi, tez-tez raket atəşlərindən evlərin pəncərələrinin və tavanlarının yararsız vəziyyətə düşdüyü və Tərtərin Marquşovan (Şıxarx) adlı məcburi köçkün qəsəbəsinin əhalisinin gecələr hava hücumundan qorunmaq üçün anbarlarda gecələdikləri bildirilir.

A.Vidmer 1994-cü ildə atəşkəs imzalanmasını, lakin münaqişənin həll olunmadığını, 30 000-ə yaxın insanın həlak olduğunu, 800 000 azərbaycanlının məcburi köçkün həyatı yaşamağa məcbur qaldığını və Azərbaycan Respublikasının beynəlxalq şəkildə tanınmış ərazisinin 20 faizə yaxın hissəsinin Ermənistanın nəzarəti altına düşdüyünü qeyd edir.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi İtaliya mediasının da gündəmindədir. İtaliyanın “Giornale Diplomatico”, “KmetroO”, “Politicamente Corretto” xəbər saytları və “Agenzia Nova” informasiya agentliyi “Ermənistan tərəfindən azərbaycanlı diplomatlara qarşı terror təhdidləri” başlıqlı xəbərlər dərc edib. Bu informasiyalarda son günlər sosial şəbəkələrdə erməni istifadəçilər tərəfindən dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən Azərbaycan və Türkiyə diplomatlarına qarşı həyati təhlükə xarakterli çağırışların yayılması bildirilir. Məlumatlar bir daha ermənilərin radikal, terrorçu xislətini əks etdirir.

Qətərin kütləvi informasiya vasitələrində də ermənilərin dinc əhaliyə terror xarakterli hərbi hücumlarına dair informasiyalar verilir. Bu ölkənin ərəb dilində nəşr olunan “Əl-Raya” qəzetində Ermənistanın Gəncə şəhərinə raket hücumu nəticəsində şəhərin mərkəzində yaşayış binalarının dağıdılması, mülki əhalinin məhv edilməsi ilə bağlı xəbər dərc edilib.

Gəncədə baş verən erməni terroru Almaniya mediasının da diqqət mərkəzindədir. Bu ölkənin “TRT Deutsch” xəbər portalında dərc olunan məqalədə Azərbaycan ilə Ermənistan arasında razılaşdırılmış atəşkəsin Ermənistan tərəfindən pozulduğu vurğulanır. “Azərbaycan: Ermənistan atəşkəsə əməl etmir” sərlövhəli yazıda bildirilir ki, Ermənistan Azərbaycanın təmas xəttindən uzaqda yerləşən şəhərlərini raket atəşinə tutub, nəticədə çox sayda mülki şəxs həyatını itirib.

Məqalədə, həmçinin Ermənistanın işğal etdiyi Qarabağın beynəlxalq hüquqa əsasən, Azərbaycana məxsus olması xüsusi vurğulanır. Ermənistanın işğalçı dövlət olmasını təsdiq edən tarixi faktlar təqdim edilir.

Sevindirici haldır ki, xarici kütləvi informasiya vasitələrində Azərbaycan-Ermənistan müharibəsi zəminində yayımlanan məlumatlar təkcə xəbərdən ibarət deyil. Bu məlumatlar arasında analitik şərh, təhlil, araşdırma xarakterli yazılar hadisələrə obyektiv baxış, balanslı yanaşma ilə diqqəti cəlb edir. Belə yazılardan biri – “Frans 24” televiziya kanalının saytında gedən “Azərbaycan ilə Ermənistan arasında açıq müharibə” başlıqlı analitik yazı obyektivliyi ilə maraq doğurur. Məqalədə bildirilir ki, oktyabrın 10-da Rusiya səlahiyyətliləri hər iki tərəflə cəsəd və əsir mübadiləsi etməsinə imkan verən humanitar atəşkəs barədə razılığa gəldilər: “Ancaq həm Dağlıq Qarabağdakı separatçı erməni qüvvələri, həm də Azərbaycan Ordusu qarşı tərəfi atəşkəsi pozmaqda və bombardmanları bərpa etməkdə günahlandırdı”. Burada diqqətçəkən məqam “müqqədəratını təyin etmək istəyən etnik ermənilərin” hamisi olan Fransa siyasi rəhbərliyinin mövqeyinə əks olaraq, Dağlıq Qarabağdakı döyüşçülərin məhz separatçı erməni qüvvələrinin olduğu haqqında ifadənin yer almasıdır.



مقتل 13 شخصا في قصف أرميني على مدينة "كنجة" الأذربيجانية

Yazıda Ermənistan ordusunun Azərbaycanın ikinci böyük şəhəri olan Gəncəyə raket hücumu nəticəsində yaşayış evlərinin tamamilə dağılması, mülki əhalinin öldürülməsi faktları yer alır. Xüsusi vurğulanır ki, bu hücumlar yalnız mülki şəxslərə qarşı yönəldilib. Məqalədə 22 yaşlı Gəncə sakini Əmrah Cəfərovun hadisə ilə bağlı təəssüratlarına əsaslanan müəllif göstərir ki, Azərbaycan xalqı 30 ilə yaxındır ki, müharibə vəziyyətindədir. Xalqın iradəsi münaqişənin uzanmasını deyil, ərazi bütövlüyünün bərpasını istəyir.

Belarusun tanınmış jurnalisti, ictimai xadim Aleksandr Zimovski “Howto news” saytına verdiyi müsahibədə Ermənistan– Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dini, regional, bəzən də qlobal zəmində təhlil edən qərəzli siyasi şərhçilərdən fərqli olaraq, Dağlıq Qarabağ məsələsinin iki ölkənin işi olduğunu bildirir: “Qarabağ problemini ATƏT-in Minsk qrupunun otuz ilə yaxın davam edən uğursuz vasitəçiliyinin göstərdiyi kimi, siyasi bir həll yolu olmayan Ermənistan–Azərbaycan problemidir”. Problemin diplomatik həll yolunun mümkün olmadığını bildirən Aleksandr Zimovski münaqişənin yalnız hərbi yolla bitəcəyini qeyd edir. “Və bu, yalnız uzunmüddətli əsasda piyadaların qüvvələri ilə mümkündür. Əks təqdirdə, burada pilotsuz təyyarələr, MLRS, təyyarələr və hətta tanklar kömək etməyəcək, əsgərlərə çox və uzun müddət ehtiyac var”. Müsahib bildirir ki, əraziyə nəzarət üçün canlı hərbi qüvvənin sayı çox önəmlidir. Ermənistan ordusunun belə hərbi potensialı yoxdur.

“Əl-Cəzirə” agentliyinin saytında yer alan növbəti yazıda Ermənistan-Azərbaycan müharibəsində son vəziyyət təhlil olunur. “Dağlıq Qarabağ: Yeni atəş; rəqiblər danışıqlar üçün “ABŞ-a doğru gedirlər” sərlövhəli yazıda xarici işlər nazirlərinin ayrı-ayrı görüşlərdə Pompeo ilə danışıqlar aparmaları, cəbhə bölgəsində hücumların daha da intensivləşdiyi qeyd olunur. Materialda Prezident İlham Əliyevin “Twitter” səhifəsində Azərbaycanın işğaldan azad olunmuş əraziləri ilə bağlı paylaşımı da yer alıb.

*Leyla RƏŞİD*
*“Xalq qəzeti”*